### Darıxmışam

*Gülüm məndən uzaqdasan,*
*Səndən ötrü darıxmışam.*
*Kaş görəyimdim səni bir an*
*Səndən ötrü darıxmışam.*

*Sənsiz qalıb o dağ, dərə,*
*Odlarım mən yüz kərə...*
*Bil həsrətdən o gözlərə*
*Səndən ötrü darıxmışam.*

*Bu dağlar gözləyir bizi,*
*Bulaqlar istəyir bizi,*
*Yaylaqlar səsləyir bizi,*
*Səndən ötrü darıxmışam.*

*Səsin düşüb qucağıma,*
*Gələnmədim otağına,*
*Yaş süzülür yanağıma,*
*Səndən ötrü darıxmışam.*
*Qoşa gəzdik utanmadıq,*
*Biz əl-ələ tutanmadıq,*
*Niyə əhdə çatanmadıq,*
*Səndən ötrü darıxmışam.*

*Hər ikimiz yandıq odda,*
*Qaynar gənclik getdi bada...*
*Ötən günlər düşüb yada,*
*Səndən ötrü darıxmışam.*

**Şakir Xəyal**
jurnalist, şair



### Qaytara bilsən

*Mən səni sevirdim gənclik illəri,*
*Qaytar o, illəri qaytara bilsən!*
*Sevmişdim, sevirəm o vaxtdan bəri,*
*Qəlbimə çəkilən rəngli şəkilsən!*
*Qaytar şəkilləri, qaytara bilsən!*

*Gözündən mavi rəng gözümə çöküb,*
*Yəgin sənin kimi gözəlləşmişəm.*
*Sözümün ahəngi sözümə çöküb,*
*O gündən ay gülüm, eşqə düşmüşəm.*
*Mən sənə verdiyim ətirli gülsən!*
*Qaytar o, illəri qaytara bilsən!*

*Sən mənim bəxtimsən, öz qismətimsən,*
*Eşqin odlarında yana bilmərəm,*
*Sən mənim ilk eşqim, məhəbbətimsən,*
*Bunu ömür boyu dana bilmərəm.*
*Ömrümdən, günümdən ötən fəsilsən!*
*Qaytar fəsilləri, qaytara bilsən!*

*Bəlkə ürəyindən silmisən məni,*
*Əllərimdən uçan quşa dönmüsən,*
*Neçə illərdir ki, görmürəm səni,*
*İndi gözlərimdə yaşa dönmüsən,*
*Ölmərəm üzümə bir dəfə gülsən!*
*O sənli günləri qaytara bilsən!*